


# Gənclər Aytən Hüseynovanı dəstəkləyəcəklərini bildiriblər

**Ötən gün VI çağırış Milli Məclisə növbədənkənar seçkilərin təbliğat-təşviqat kampaniyası çərçivəsində 29 saylı Səbail seçki dairəsindən Yeni Azərbaycan Partiyasının (YAP) deputatlığa namizədi Aytən Hüseynova rayon gəncləri ilə görüşüb.**





Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahı Səbail rayon şöbəsinin və partiyanın rayon təşkilatının sədri Şəmsəddin Hacıyev son illər, xüsusilə 2018-ci ildən etibarən Azərbaycanın ictimai, iqtisadi, humanitar, sosial həyatının istisnasız olaraq bütün sahələrində, hakimiyyətin bütün qollarında, o cümlədən hakimiyyətin icraedici, məhkəmə-hüquq və qanunverici qollarında əsaslı islahatların, institusional və struktur dəyişikliklərinin həyata keçirilməsi, ixtisaslı kadrların yenilənməsi, savadlı, yaradıcı, geniş dünyagörüşlü gənclərin irəli çəkilməsi, xüsusilə YAP-ın sıralarında fəal ictimai-siyasi fəaliyyətləri ilə fərqlənən gənclərə göstərilən yüksək etimad və gənclərin özünüinkişafının dəstəklənməsi haqqında danışıb.

Bu seçkilərdə YAP namizədləri sırasında qadınların və gənclərin xüsusi çəkisinin yüksək olduğunu diqqətə çatdıran sədr parlamentdə təmsil olunacaq gənclərin ölkəmizdə islahatların daha sürətli, daha uğurlu və genişmiqyaslı şəkildə aparılmasına müsbət mənada ciddi təsir göstərəcəyinə əminliyini ifadə edib.

Gəncləri seçkilərdə maksimum fəal olmağa çağıran 29 saylı Səbail seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Aytən Hüseynovanın səlahiyyətli nümayəndəsi, YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin qərargah üzvü və partiyanın rayon təşkilatının aparat rəhbəri Zəfər Bayramov Hüseynova Aytən Arif qızının tərcümeyi-halı və partiya sıralarındakı ictimai-siyasi fəaliyyəti haqqında gənc seçicilərə geniş məlumat verib.

Çıxış edən deputatlığa namizəd Aytən Hüseynova YAP-ın bu seçkilərdə gənclərə göstərdiyi yüksək etimad haqqında danışaraq partiyanın bu etimadının deputatlığa gənc namizədlər üçün eyni zamanda, yüksək məsuliyyət və əvəzolunmaz təcrübə olduğunu qeyd edib. YAP tərəfindən irəli sürülən 123 nəfər deputatlığa namizəd arasında 18 nəfər gəncin olduğunu diqqətə çatdıran YAP namizədi bildirdi ki, təşviqat prosesində bu gənclər sınanacaq, bilik və bacarıqları nümayiş etdirəcəklər. A.Hüseynova vurğulayıb ki, seçiləcəyi təqdirdə özü üçün doğma rayon olan Səbail rayonunda görəcəyi işlər YAP-ın daha güclü Azərbaycan naminə növbəti 5 il üçün müəyyənləşdirdiyi 10 sosial-iqtisadi inkişaf hədəfi çərçivəsində müəyyənləşəcək. Bu işlərin reallaşması üçün Səbail gənclərini bir daha ölkə Prezidentinin siyasəti ətrafında sıx birləşməyə çağıran A.Hüseynova hər kəsi 9 fevral günü seçki məntəqələrinə gəlməyə, səsvermə hüququndan istifadə etməyə və daha güclü Azərbaycan naminə YAP-ın namizədlərinə səs verməyə dəvət edib.

Tədbirdə YAP Səbail rayon təşkilatı Gənclər Birliyi sədrinin müavinləri Fuad Heydərli və Vüsal Əhmədov, rayon GB-nin İdarə Heyətinin üzvü Aytəkin Hacıyeva, gənc fəal, Energetika Nazirliyinin əməkdaşı Vüqar Cabbarov və Qərbi Kaspi Universitetinin tələbəsi İlkin Həsənov çıxış ediblər. Natiqlər Səbail rayonu gənclərinin hər zaman bütün ictimai-siyasi proseslərdə öncül rolunu qeyd edərək YAP-ın indiyədək bütün seçkilərdə olduğu kimi, bu seçkilərdə də qələbə qazanacağına əminliklərini ifadə ediblər.



Yüksək əhval-ruhiyyə ilə keçən tədbirdə səbailli gənclər yekdilliklə YAP-ın namizədi Aytən Hüseynovanı dəstəkləyəcəklərini bildiriblər.

**Ceyhun Piriyev,**
***"İki sahil"***

# Sabitlik, əmin-amanlıq YAP-ın qələbəsini təmin edən əsas amillərdir

**Milli Məclisə keçiriləcək seçkilərdə Yeni Azərbaycan Partiyası tərəfindən 71 saylı Masallı kənd seçki dairəsindən namizədliyi irəli sürülən Anar İsgəndərov təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Masallı rayon təşkilatı aparatında seçicilərlə görüş keçirib.**





Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahı Masallı rayon şöbəsinin sədri Seyfəddin Əliyev namizəd Anar İsgəndərovun tərcümeyi-halı və iş fəaliyyəti ilə bağlı seçicilərə ətraflı məlumat verib.

Seyfəddin Əliyev qeyd edib ki, Prezident İlham Əliyevin siyasətinin uğurları, iqtisadiyyatın dinamik inkişafı, əhalinin rifahının yüksəlməsi, bölgələrin sosial-iqtisadi inkişafı, Azərbaycanın beynəlxalq müstəvidə imicinin artması, sabitlik, əmin-amanlıq partiyamızın qələbəsini şərtləndirən əsas amillərdir: "Əlbəttə ki, ötən seçkilərdən keçən müddətlə indiki vəziyyəti müqayisə etsək görərik ki, Azərbaycanda insanların həyatı müsbət mənada əhəmiyyətli dərəcədə dəyişib, bütövlükdə ölkəmiz yeniləşib, müasirləşib. Şübhəsiz ki, bu müsbət dəyişikliklər qarşıdan gələn parlament seçkilərində YAP-ın parlaq qələbə qazanmasında mühüm rol oynayacaq. Yeni Azərbaycan Partiyası xalqı üçün çalışan, dövlətçiliyimiz qarşısında böyük xidmətləri olan insanların bu seçkilərdə millət vəkilliyinə namizədliklərini irəli sürüb. Partiyamızın 71 saylı Masallı kənd seçki dairəsi üzrə namizədi Anar İsgəndərov da məhz belə insanlardandır".

Seyfəddin Əliyev seçiciləri səsvermədə aktiv iştirak etməyə, 71 saylı Masallı kənd seçki dairəsindən Yeni Azərbaycan Partiyasının layiqli namizədi Anar İsgəndərova səs verməyə çağırıb.

Sonra deputatlığa namizəd Anar İsgəndərov çıxış edərək Milli Məclisə üzv seçilərsə, görəcəyi işlərdən, rayon üçün inkişaf proqramının həyata keçirilməsi ilə bağlı daim çalışacağından danışıb. Millət vəkili olmağın şərəfli bir iş olduğunu qeyd edən A.İsgəndərov seçicilərin etimadını qazanacağı halda xalqın qayğıları ilə yaşayıb insanların fikirlərini, təkliflərini Milli Məclisin tribunasından səsləndirəcəyini bildirib: "Bu səbəbdən də çalışacağam ki, seçki prosesində çox fəal olum, sizinlə davamlı görüşüm, fikirlərinizi öyrənim, problemlərinizin sizin iştirakınızla həll edilməsinə səy göstərim".

Seçicilərdən Bağır Bağırov, Yasər Əmirov, Rakit Cəfərov və başqaları çıxış edərək bildiriblər ki, YAP Sədri, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar Azərbaycanın daha da güclənməsinə səbəb olub. Onlar Prezident İlham Əliyevin son illər ərzində regionlara müntəzəm səfərlər etdiyini, regionlarda həyata keçirilən infrastruktur layihələrini daim diqqət mərkəzində saxladığını vurğulayıblar. YAP-ın güclü siyasi təşkilat olduğunu deyən natiqlər partiyanın bütün seçkilərdə böyük səsçoxluğu ilə qalib gəldiyini xatırladaraq 9 fevralda da seçicilərin YAP-ın lehinə səs verəcəklərinə əminlik ifadə ediblər.

**Taleh Bağırov,**
***"İki sahil"***